"Hər dəfə hansı ölkədə səhnəyə çıxmağımdan asılı olmayaraq ilk öncə mili musiqimizi ifa edirəm. Xüsusən də ermənilər "Sarı gəlin"i öz adlarına çıxandan sonra, dünyanın hansı ölkəsinə gedirəmsə, orada konsertimi "Sarı gəlin"lə başlayıram. Konsert bitəndən sonra zaldakı tamaşaçılar mənə yaxınlaşır musiqimizlə maraqlanır və bəyndiklərini bildirir"



# "Skripkanı həyatım adlandırıram,

## Çünki həyatın bütün anlarında mənə ən yaxın dost olub"

sənətçi

GÜNAY

*Ozlərinə məxsus fərqli və müxtəlif cəhətlərlə vəhdət yaratmaqla musiqiyə yeni səs vermək arzusunda olan azərbaycanlı skripkaçı Səbinə Rakçeyeva, İraqəsilli britaniyalı Xəyam Əllami (ud və dəf) və Çinəsilli britaniyatlı improvizator və fuzionist Ben Sellers (klarnet) azəri və ərəb musiqi ənənələrini, eləcə də Qərbin caz və klassik ənənələrinin təsiri altında yenicə yaranmış triodur. Bu trionun üzvlərinin musiqilərindəki həzinlik, gözəllik, qeyri-adilik musiqi gecəsinin iştirakçılarını heyrətə gətirirdi. Yeni yaranan trionun üzvləri London Universitetinin musiqi fakültəsində tanış olublar. Həmyerlimiz Səbinə Rakçeyeva Bakıda doğulub. Ölkəmizdə keçirilmiş "İlin ən yaxşı skripkaçısı" müsabiqəsinin qalibi, Nyu-York Qarşılıqlı Anlaşma Fondunun ilk mükafatçısı və İtaliya Mədəniyyət Nazirliynin stipendiantı olan Səbinə Nyu-Yorkun nüfuzlu Juiliard Məktəbinə qəbul olan ilk azərbaycanlıdır. Sonralar bir müddət Belçikada yaşayıb. Bir ildir ki London Universitetinə doktoranturaya qəbul olması ilə əlaqədər orda yaşayır. O, 40-dan çox ölkədə çıxış edib və çıxışları BBC və CCN kanallarında göstərilib. İsveçrə kamera orkestrinin üzvüdür, bir neçə tələbəsi var. Bir neçə gündür ölkəmizdə olan S.Rakçeyeva Milli Məclisin 90 illik tədbirində, Musiqi bayramında və "Azərilmə" MMC-də çıxış edib. S.Rakçeyeva ilə görüşüb onun yaradıcılıq dünyasından söhbət etdik.*

**-Skripka aləti səni nə ilə özünə cəlb etdi?**

-Ümumiyyətlə , musiqiyə çox böyük həvəsim olub. Anam həvəskar musiqiçidir. O, həmişə evdə müxtəlif musiqilər səsləndirərdi, məndə çox maraqla dinləyərdim. Eyni zamanda televiziya ekranında göstərilən bütün musiqi verilişlərinin dinləyicisi idim. Xüsusən də skripka alətinin ifaçıları məni daha çox cəlb edirdi.

Skripkanı həyatım adlandırıram. Çünki həyatın bütün anlarında mənə ən yaxın dost olub. O hər zaman yanımdadır, məni heç vaxt tək qoymur. Amma onu da deyim ki, skripkada çalmaq çox çətindir.

**-Sizin ifa etdiyiniz musiqilərdə Qərb-Şərq musiqisinin sintezini görürük...**

-Düzdür, kllasik musiqi janrını sintez formasında işləməyi sevirəm. Hər zaman çalışıram ki, ifa etdiyim musiqilərdə həm Şərqin, ... xarici və yerli musiqiçilərlə əlaqə saxlayıram. Hər iki musiqi aləmində olan yeniliklərlə tanış oluram.

**-Repertuarında hansı milli musiqilər yer alıb?**

- Azərbaycan musiqisi olan "Sarı gəlin" və öz improvizəm nəticəsində yaranan musiqi kompozisiyasına daxil etdiyim "Laçın" musiqisi repertuarda yer alıb. 9 ildir ki Azərbaycandan kənarda yaşamağıma baxmayaraq, ildə bir dəfə ölkəyə gələrək, yerli musiqiçilərlə konsert verirəm.

**- Necə oldu ki, Fransa musiqi bayramına dəvət aldınız?**

-Həmişə Fransa səfirliyi ilə əlaqə saxlayıram. Onların bir çox konsertlərində iştirak etmişəm və ifamı çox bəyəniblər. Mədəniyyət müşaviri xanım V. Baronun dəvəti ilə bu bayrama qatıldım. Ölkəmizdə belə bir möhtəşəm gecənin keçirilməsi mənim üçün gözlənilməz oldu. Bu bayramın keçirilməsinin yüksək dəyəri

**-40-dan çox ölkədə olmusunuz, orada milli musiqilərimiz xarici vətəndaşlar tərəfindən necə qarşılanır?**

- Xarici ölkələrin kllassik musiqiyə həm marağı böyükdür,həm də bu sahədə təcrübəsi çoxdur. Hər dəfə hansı ölkədə səhnəyə çıxmağımdan asılı olmayaraq ilk öncə mili musiqimizi ifa edirəm. Xüsusən də ermənilər "Sarı gəlin"i öz adlarına çıxandan sonra, dünyanın hansı ölkəsinə gedirəmsə, orada konsertimi "Sarı gəlin"lə başlayıram. Konsert bitəndən sonra zaldakı tamaşaçılar mənə yaxınlaşır musiqimizlə maraqlanır və bəyndiklərini bildirir. Uzun illərdir ki, ölkədən kənarda yaşasam da hər zaman Azərbaycan musiqisini təmsil edirəm. Həqiqətən xarici ölkədə tanınmağımız üçün mədəniyyətin bütün sahələrinin təbliği vacibdir. Çünki hər bir ölkənin mədəniyyəti onun aynası hesab

**xüsusiyyəti ilə yadında qaldı?**

**-Onu da deyim ki, ölkədə böyük quruculuq işləri aparılıb.**

Bu da bütün sahələrin inkişafına xüsusən də mədəniyyətin inkişafına kömək edəcək. Turistlərin ölkəmizə axını artıb.

Bir maraqlı faktı da qeyd edim ki, həmişə ölkəyə tək gəlmişəm və yerli musiqiçilərlə konsert vermişəm. Amma budəfəki səfərimdə trio ilə gəldik. İki əcnəbi musiqiçi mənimlə ilk dəfə ölkəmizə gəldi. Onlar ölkəmizdə ilk dəfə iştirak etmələrinə baxmayaraq, Azərbaycanı çox bəyəndiklərini dedilər. Xüsusən də "Şirvanşahlar" sarayı onları heyran etdi. Hətta onlar orda bir neçə gün qalmaq arzusunda olduqlarını söylədilər.

*Səbinə xanımın ən böyük arzusu özünün dediyi kimi, daim yaradıcılığında Qərblə Şərqin sintezini təcəssüm etdirən*